18. Trier J. Der deutsche Wortschatz im Sinnbezirk des Vers-tahdes. Die Geschichte eines sprachlichen Feldes. Ed. 1-Heidelberg: Carl Wintere Universitatsbuchandlung, 1991. 5 347 /Germanische Bibliothek.
19. http: krugosvet.ru.

## THE PROBLEM OF ESSENCE OF THE SEMANTIC FIELD

***Efendiyeva Ayten Uzeir***

***Summary***

The concept of semantic field was introduced to linguistics for the systematic organization of vocabulary. According to the field approach, it is possible to find dialectical connections between words and the ethno-national features of the subject, event, extralinguistic reality. The study of areas has both theoretical and practical significance, as such an approach to language adapts to the natural conditions of speech communication when grammatical, lexical and phonetic means complement or replace each other in speech communication.

Earlier, the concept of field was used to define the events and processes studied in physics, and then in other sciences. Later this term began to be widely used in linguistics. The concept of field as a term was developed by I. Trier in 1931 in linguistics. The purpose of the article is to study the essence of the semantic field, for which the descriptive method was used. The article can be used as a visual aid by professionals working in this field.

## ПРОБЛЕМА СУЩНОСТИ СЕМАНТИЧЕСКОГО ПОЛЯ

***Эфендиева Айтен Узеир***

***Резюме***

Понятие семантического поля было введено в лингвистику для систематической организации словарного запаса. Согласно полевому подходу можно найти диалектические связи между словами и этнонациональными особенностями предмета, события, экстралингвистической реальности. Изучение области имеет как теоретическое, так и практическое значение, поскольку такой подход к языку адаптируется к естественным условиям речевого общения, когда грамматические, лексические и фонетические средства дополняют или заменяют друг друга в речевом общении.

Ранее понятие поля использовалось для определения событий и процессов, изучаемых в физике, а затем и в других науках. Позже этот термин стал широко использоваться в лингвистике. Понятие поля как термина было разработано И. Триером в 1931 г. в лингвистике. Цель статьи - изучить сущность семантического поля, для которого использовался описательный метод. Статья может быть использована в качестве наглядного пособия профессионалам, работающим в этой области.

***Rəyçi: f.e.dok.dos Nərmin Əliyev Əbülfəz qızı***
***Azərbaycan dili kafedrasının 16 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 24 noyabr 2021-ci il***

**UOT:811.**

## DİL VƏ MUSİQİNİN İNTONASİYASI: FƏRQLƏR VƏ OXŞARLIQLAR

***Ələkbərova Fidan Faiq qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
***Gceferova @rambler.ru***

**Xülasə:** *Məqalədə sözlü və musiqi dilinin qarşılıqlı münasibətlərinin müxtəlif aspektləri nəzərdən keçirilir. Məqalədə intonasiyaya, intonasiya hadisəsinin ümumi cəhətlərini açkar*

*etmək məqsədi ilə onun musiqi və dildə əsas komponentləri və funksiyalarına həsr edilmiş mənbələrin icmalı verilir. Müəllif tərəfindən bu mədəniyyət fenomenlərinə dair biliyin tarixi inkişafı izlənilir, habelə dil və musiqinin oxşar və fərqli əlamətlərinin araşdırıldığı mənbələr təhlil olunur. Məqalədə musiqi və danışıq intonasıyasının obraz-məna informasiyasının daşıyıcısı olması, onun məna yükünün və emosional durumun formalaşmasında iştirakı, habelə emosional-tembr obrazı yaratdığı qeyd edilir. Müəllif musiqi və danışıq intonasiyaları arasında əlaqəni qeyd edir, başqa sözlə, musiqi intonasiyası danışıq intonasiyasından törədiyi göstərir.*

**Açar sözlər:** intonasiya, danışıq intonasiyası, musiqi sənəti, dil, musiqi, nitq, ton

**Ключевые слова:** интонация, речевая интонация, музыкальное искусство, язык, музыка, речь, тон

**Key words:** intonation, speech intonation, music art, voice, language, music, speech, toner

Dil və musiqinin qarşılıqlı əlaqəsi həm dilçilikdə, həm də musiqişünaslıqda daima diqqət mərkəzində olmuşdur. Dilçilikdə dilin intonasiya xüsusiyyətlərinin öyrənilməsinə A.M.Peşkovski [1959], L.V.Şerba [17], L.R.Zinder [17], F.Y.Veysəllinin [1; 2], musiqişünaslıqda isə B.A.Asafiyev [4; 5], M.Q.Aranovski [3] L.A.Mazel [8], E.V.Nazaykinski [11; 12], V.K.Meduşevskinin [9; 10] və b-nın tədqiqatlarında geniş yer verilmişdir. Əlavə edək ki, musiqişünaslıqda musiqinin intonasiya xüsusiyyətlərinin öyrənilməsində çıxış nöqtəsi V.A.Asafiyevin tədqiqatları hesab edilir. Musiqi əsərlərinin formalaşmasında musiqinin rolu mübahisəsizdir, yəni B.V.Asafiyevin fikrincə, "musiqi intonasiya olunan məna sənətidir" [5, s. 7]. Onun qənaətinə görə, intonasiyanın mahiyyəti "musiqinin məzmun funksiyasının ifadəsindədir" [5, s. 355].

Dil və musiqi bir kökdən – insan səsindən törəmişdir. Musiqi intonasiyasının cəmiyyətin musiqi şüurunun əsas vahidi kimi çıxış etdiyini qeyd edən B.V.Asafiyev hətta intonasiyanın musiqi və dildən qabaq mövcud olmasına dair fərziyyə irəli sürür. Bu fərziyyəyə görə, intonasiya "tembrin mənalanması" kimi başa düşülə bilər ki, bu da "mənalı-ahəngli nitqin" yaranmasına gətirib çıxarmışdır" [5, s. 240].

Musiqi sənətində intonasiyanın prioritetliyi danılmazdır. Musiqinin canı əsrin nəfəsini duyan canlı intonasiyadır. İntonasiya söyləmin formalaşmasının və onun mənasının aşkarlanmasının mühüm vasitəsidir. Musiqidə intonasiya adətən qarşılıqlı əlaqəli komponentlərin – melodiklik, intensivlik, uzunluq və danışığın tempi və tələffüz tembrinin vəhdətidir. Bəzən intonasiyanın komponentləri sırasına fasilə də aid edilir ki, bu da tam qəbulolunandır. Musiqi intonasiyasının əsas komponenti kimi melodikanı fərqləndirirlər. Musiqidə intonasiya müxtəlif funksiyalara malikdir. İntonasiyanın funksiyalarını nəzərdən keçirən N.B.Çeremisina delimitativ, mənafərqləndirici, apellyativ və estetik funksiyaları fərqləndirir [15]. L.A.Mazel isə musiqi-ifadəli, musiqi-məntiqi, konstruktiv və formadüzəldici funksiyaları fərqləndirir [8, s. 19]. L.A.Mazelin təklif etdiyi funksiyalar həm də musiqi intonasiyası üçün keçərlidir. İntonasiyanın funksiyalarının rəngarəngliyinə baxmayaraq, əsas funksiya kimi kommunikativ funksiya götürülür, çünki intonasiya ilə tərtiblənmiş hər bir söyləm bu və ya digər kommunikativ təyinata malikdir və söyləmin kommunikativ tərkibləri arasında müəyyən məna münasibətləri ilə səciyyələnir. Musiqidə də kommunikativ funksiya bu cür əhəmiyyətə malikdir. Musiqi özünəməxsus dil kimi müəyyən informasiyanın daşıyıcısıdır. İstər danışıqda, istərsə də musiqidə intonasiyanın hərəkəti emosiyaların, məna çalarlarının yaradılması üçün mühüm əhəmiyyət kəsb edir.

Musiqi özünün universallığına baxmayaraq, milli-spesifikdir və xalqın mədəniyyəti ilə şərtlənir. Musiqi dinləyici ilə intonasiya vasitəsi ilə həmsöhbət olur. V.V.Meduşevski musiqinin intonasiyasını "”məna-səs vəhdəti" [10, s. 67] kimi təyin edir. Onun fikrincə, "musiqidə intonasiya bütöv miqyasında onun ifadəliliyinin bütün vasitələrinin vəhdətdə birləşmələrinin səsli təcəssümüdür. Musiqi intonasiyası özündə unikallığı musiqi mövzuların ifadəliliyinə

təsir edən musiqi intonasiyasını özündə saxlayan ümumiləşməni təmsil edir. Nitq intonasiyası söyləmə həmən an əlavə emosional məna verməyə qabildir, bəzən isə o, mənanı o dərəcədə dəyişir ki, sonda sözlərlə ziddiyyət təşkil edir [10]. Göründüyü kimi, həm B.V.Asafiyevin, həm də V.V.Meduşevskinin şərhlərində intonasiya və musiqinin ifadəli təbiəti, onun psixi tonusu, musiqinin ruhi məzmununun təfəkkürlə birləşməsi, kompozitorun, ifaçının və dinləyicinin şəxsiyyətinin özünüifadəsi mənayaradıcı kimi çıxış edirlər.

İntonasiya həm musiqidə, həm də danışıqda ünsiyyət prosesində qarşılıqlı təsirin mühüm vasitəsidir. Danışığın intonasiya qanunauyğunluqlarına həm də musiqidə riayət olunur. Lakin qeyd edək ki, danışığın özü məna baxımından mühüm sözlərin düşünülmüş vurğulanması ilə bağlı müxtəlif intonasiya variasiyalarına imkan verir.

İntonasiya sözlü informasiyanın semantikasının ötürülməsində aparıcı komponentdir. Bu mənada musiqi yalnız poetik nitqlə deyil, həm də danışıq dili, onun intonasiya ifadəliliyi ilə bağlıdır. Bu təsəvvürlərə istinad edən bəzi dilçilər danışıq intonasiyasını musiqi intonasiyasının əsas mənbəyi hesab edirlər. İntonasiya söyləmlərin kommunikativ komponentlərini, onların illokutiv gücünü, dəyərləndirmə moduslarını nişanlayır. L.R.Zinderə görə, "intonasiya subyektiv şeydir, hər bir insanın öz intonasiyası vardır" [7, s. 267] fikri qəbuledilməzdir. Çünki, müəllifə görə, "intonasiyanın subyektivliyinin etiraf edilməsi onun linqvistik funksiyasının inkarına bərabərdir, zira subyektiv, sosial şərtlənməmiş linqvistik məna kəsb edə bilməz" [7, s. 268].

İntonasiya danışığa emosional ifadəlilik verir. İntonasiyanın söyləmin mənası ilə sıx əlaqəsi onu kommunikasiyanın mühüm faktorlarından birinə çevirir. Kommunikativ funksiya ilə birgə emosional funksiya müəllifin emosiyalarının ifadəsini də yerinə yetirir. İntonasiyanın emosional funksiyası yalnız danışanın emosional durumunu deyil, həm də onun danışığın məzmununa münasibətini əks etdirir. E.V.Nazaykinskinin fikrincə, intonasiyanın emosional funksiyası musiqidə daha mühümdür. Danışıqda mənanı məhz sözlər daşıyır, musiqidə isə sözlər yoxdur, yalnız intonasiya vardır, onda musiqi məna ifadə edə bilməz fikrinə münasibət bildirən müəllifə görə, "...məhz insanını emosional intonasiyasının mənalılığı, onun danışığın mənalı məqamları, onun konkret məzmunu, məntiqi və iradi istiqaməti ilə birbaşa əlaqəsi nitqin melodiyasını heyvanların çığırtılarından fərqləndirir. İnsanın intonasiyasının bu xüsusiyyəti həm də musiqidə qorunub saxlanılmışdır" [12, s. 293]. Musiqi və danışıq intonasiyalarının funksiyalarının yaxınlığı həm də danışıq təcrübəsinin musiqinin qavranılmasına köçürülməsinə imkan yaradır. Müəllif bunu belə izah edir: "Musiqi və danışığın eyni bir duyğu üzvünə - eşitməyə müraciəti, habelə danışıq və musiqidə səsin ümumi "alət" kimi işlədilməsi faktları artıq əsas verir ki, danışıq və musiqinin səs materialında, müxtəlif səviyyələrdə onun təşkili prinsiplərində xeyli ümumi cəhətlərin olmasını deməyə əsas verir və məhz buna görə danışıq təcrübəsi musiqinin qavranılmasında mühüm rol oynayır" [12, s. 252].

Bununla belə, eşitmə təsəvvürləri musiqi və danışığın materiallarında oxşarlıqla müqayisədə fərqlərin qavrayış üçün daha aydın və qabarıq olmasından xəbər verir. Buradan üç müxtəlif təklif irəli sürmək olar: ya musiqi materialı ilə dil materialı arasında oxşarlıqlar hər halda əhəmiyyətli deyildir, ya o əhəmiyyətlidir, lakin qavramada mühüm rol oynamır, ya da o yetərincə böyükdür, amma hardasa musiqinin səs strukturunun dərinliklərində gizlənmişdir və onun elementləri spesifik elemnli birləşmələrin elə birləşmələrində verilmişdir ki, bütöv yeni xarakter kəsb edir və buna görə də oxşarlıq qavrayış üçün demək olar ki, hiss olunmaza çevrilir.

Musiqi və danışıq səslərinin tələffüzü və eşidilməsinin xüsusiyyətlərində onların ümumilik əlamətləri zamanın iki miqyasında aşkara çıxır. E.V.Nazaykinskinin fikrincə, "onlardan birincisini ayrı-ayrı səslərə, hecalara uyğun gələn fonetik, ikincisi motiv, fraza, söyləm səviyyələrinə uyğun gələn sintaktik səviyyəni aid etmək olar. Üçüncü miqyas səviyyəsinə - daha böyük quruluşların və ya bütövlükdə kompozisiyaların qavranılması

səviyyəsinə səs materialının əsas xüsusiyyətləri: ucalıq, yüksəklik, tembr, uzunluq, tələffüz üsulları əksər hallarda birbaşa münasibətə malik olmurlar” [12, s. 252].

Fonetik səviyyədə siqnalın ritmik-dinamik strukturunu təhlil etsək, onda səslərin bütün rəngarəngliyi fonunda danışıqda və musiqidə səs axınını səslənmənin güclənməsi və zəifləməsi kimi iki növbələşən elementə bölmək mümkündür. Danışıqda bu ikifazalıq onun iki əsas mexanizmini - nəfəs alma və tələffüz cihazının əlaqəli hərəkətini əks etdirir. Bu həm də danışıq zəncirinin üzvlənməsi və diskretliliyinin əsasıdır. Dalğavari əyri dinamika fizioloji münasibətdə iki müxtəlif sistemin energetik aktlarının – fonasiya və tələffüz aktlarının əvəzlənməsidir. Əslində, hər iki sistem paralel fəaliyyət göstərir, lakin aparıcı rol növbəli şəkildə birindən digərinə keçir. Səs planında bu həm də sait və samitlərin əvəzlənməsində ifadə olunur. F.Y.Veysəllinin fikrincə, “nəfəsalma fəal, nəfəsvermə passiv olur. Fonasiyada nəfəsalma sakit vəziyyətdəkinə oxşayır, ancaq tamam başqa cür olur. Nəfəsvermə mərhələsi xeyli uzun çəkir, həm də nəfəsin təzyiqi nisbətən qeyri-bərabər olur, nəfəsvermə deyilənin və ya oxunan parçanın semantikasına tabe olur” [2, s. 42]. Müəllifə görə, “fonasiyada elastik gərginliyi təmin etmək üçün subqlottal təzyiq olmalıdır. Əksər halda ciyərdə elastikliyi və səs cığırında subqlottal təzyiqi sabit saxlamaq üçün bütün fonasiya boyu ciyərin fəallığı müşahidə olunur. Buna ancaq gərgin səs tellərinin müqaviməti ilə nail olmaq olur” [2, s. 43]. Danışıq və musiqi tələffüzünü birləşdirən digər əlamət səsin musiqi üçün daha mühüm əhəmiyyət kəsb edən ikinci fazasının nisbətən sabitliyidir. Səsin birinci fazasından sonra gələn ikinci fazasında həm musiqi, həm də danışıq tələffüz motorikası müəyyən zaman kəsimində öz dinamikasına görə nisbətən daimi qalır. Orta faza həm musiqi, həm də danışıq səslərində uzunluğuna görə üstünlük təşkil edir. Musiqidə tonun stasionar (dəyişməz) hissəsi və danışıqda hecanın sait səsi intonasiya informasiyasının əsas daşıyıcılarıdır. Bəzi hallarda danışığın intonasiya melodikasının hərəkətinin əsas fazası məhz sait səsdə yerinə yetirlir. Musiqidə yalnız tonun stasionar hissəsində eşitmə musiqi yüksəkliyini əxz edə bilir. Beləliklə, musiqi və danışıq tələffüz vahidlərinin müqayisəsi göstərir ki, həm musiqidə, həm də danışıqda üzvlənmə və diskretlilik iki üsulla əldə olunur: vahidi əvvəlki səs axınından ayıran başlanğıc fazanın aktivliyi və ikinci fazanın sabitliyi.

Musiqi səslərini danışıq səslərindən fərqləndirən səciyyəvi xüsusiyyəti tonun davamlılığı, bütün səs boyu yüksəkliyin sabitliyidir. Bu fakt fonetik səviyyədə musiqi və danışı materialları arasındakı aşkar prinsipial fərqlilikdən xəbər verir. Lakin bu fərq nisbətən də oxşarlıq səs axınının üzvlənməsi ilə bağlıdır. Həqiqətən, səs axınının vahidlərə bölünməsi həm sərhədlərin olması, həm də vahidlər arasında vəhdətin olmasını təxmin edir. Danışıqda bu cür bütövlük sait səs boyu əsas tonun dəyişməsində formantın saxlanılması, musiqidə isə yüksəkliyin saxlanılması ilə təmin edilir. Onların ümumi cəhəti üzvlənmədə öz əksini tapır. Bununla belə musiqinin səslənməsində onu danışığın səslənməsindən fərqləndirən bir fərq vardır: musiqidə həmlələr kəskinliyi, bir qayda olaraq, hissolunacaq dərəcədə azdır, çünki onda səsin hərəkətində sərhədlərin pərdələnməsi üsulundan istifadə olunur.

Musiqi və nitqin qarşılıqlı təsirinin mühüm sahələrindən biri də ritmdir. Ritmin əsas xüsusiyyəti isə elementlərin təkrarlanması, onların əvəzlənməsində müntəzəmlikdir. İntonasiyanın ritmik tərəfi həm danışıq elementlərinin ümumi uzunluğunda, tempində, həm də bu elementlərin səslərinin uzunluqlarının bir-biri ilə münasibətində özünü büruzə verir. Musiqi və danışığın qarşılıqlı əlaqəsində musiqi ifa sənətinin ifadəlilik əsası nəzərdən keçirilir. İnsanın nitqi musiqinin qanunları ilə tənzimlənir. Buna görə də musiqi sənətinin əsas vəzifəsi musiqi səslərində yalnız hisslərin əhval-ruhiyyəsinin əks etdirilməsi deyil, həm də başlıcası insan nitqinin əhval-ruhiyyəsinin əks etdirməkdən ibarətdir. Musiqi frazasının şərhində onun danışığa xas ifadəliliyi hiss olunur, yəni musiqi sözlü ifadənin xüsusi ekvivalentinə çevrilir, o, sintaktik asılılıq formasını qəbul edir. S.E.Feynberqin qeyd etdiyi kimi, “bu halda musiqinin mənasının ən yaxşı ifadəçisi insanın ifadəli səslənmənin meyarı kimi dəyərləndirilən səsi çıxış edir” [14, s. 294].

Musiqi əsərinin intonasiyası musiqi qrammatikasının daxilində yer alır: tonal-lad, metrik pulsasiya, ritm, harmoniya, ucalıq və s. Bununla da musiqi musiqili-qrammatik anlam kəsb edir və daha vacibi isə yeniləşir. Bu hərəkətlərin nəticəsində eşidilən düşünülmür –bu səslənmənin akustik səslənməsi və intonasiya olunan obraz üst-üstə düşmürlər. Musiqinin intonasiyası danışığın intonasiyasından səslərin yüksəkliyə görə bu və ya digər lad sisteminə tabe olması ilə fərqlənir. Musiqidə fonem əvəzinə tembr çalarları, səsin tələffüz üsulları və ya musiqi alətlərinin harmoniyası. fəaliyyətdədir. Musiqinin intonasiyası bütövlükdə səsin xüsusiyyətlərinin üzərinə yayılır. Bu zaman söz hadisəni adlandırırsa, musiqinin intonasiyası isə hadisələri duymağa və onları yaşamağa məcbur edir. İntonasiya bədii obrazın musiqi səslərində təcəssümüdür. İntonasiya dil və musiqinin ümumi kökündür, çünki həm musiqi, həm də dil intonasiyadan rişələnmişlər. Həm musiqi əsərləri, həm də poetik əsərlər müvafiq dillərin köməyi ilə yaranır, intonasiya isə dilin spesifik cəhətidir və bu səbəbdən biz çox vaxt xarici vətəndaşı onun intonasiyasından tanıyırıq. İntonasiya musiqi əsərinin mənasının əsas ifadə üsulu, məna tərəfindən səs tərəfinə inkişaf vektorudur. V.V.Meduşevskinin qeydinə görə, "məna energiyaları ilə birikmiş intonasiya səslənmənin bütün tərəflərində parçalanmaz bütövdür [10, s. 33].

İntonasiya musiqi və söz arasında uzanan körpüdür. Musiqinin intonasiya xüsusiyyətləri və formaları sosial kontekstə istiqamətlənmişdir, yəni onlar kommunikativ davranış aktlarından boy atmışlar və şəxsiyyətin sosial məkana "girişini" təmin edirlər. A.Patel musiqi intonasiyasını danışığın intonasiyasından fərqləndirən üç mühüm fərqi qeyd edir. Müəllifə görə, bu fərqlər aşağıdakılardan ibarətdir: "danışıqda intervalların olmaması, danışıqda tonun tədricən düşməsi və danışıqda və musiqidə intonasiya arasında qarşılıqlı bağlılığın neyrofizioloji pozulması (musiqi duyumu problemi olan insanlar, məsələn, mahnının melodiyasının təkrarlaya bilməyənlər, danışığın intonasiyasında bu cür pozuntulara yol vermirlər)" [18, s. 185]. L.K.Çeplitis dil və musiqinin intonasiyasının sadalanan fərqlərinə digərlərini də əlavə edir. Onun fikrincə, "danışığın melodiyası müəyyən tonun üzərində dayanmır, fasiləsiz olaraq müəyyən qammanın sürüşkən hərəkətini yerinə yetirir, mütəmadi ritm və taktı aşkar etmir, müəyyən qamma sxemində hərəkət etmir" [16, s. 107]. Musiqi fəaliyyəti, bədii ünsiyyət vasitələrindən biri kimi, psixoloji baxımdan da nitq qanunauyğunluqlarına istiqamətlənmişdir. Bunu nəzərdə tutan E.B.Nazaykinski, "musiqini bədii məlumat kimi anlaşılması ilə bağlı musiqi-dil fəaliyyətini" xüsusi qeyd edir [9, s. 104].

Danışıq və musiqi intonasiya arasında oxşarlığın ən xarakterik parametrləri onların intonasiya əsaslığı, kommunikativliyi və işarəviliyidir. Musiqi incəsənətin ən emosional növlərindən biridir və müxtəlif emosiyaların ifadəsinin geniş spektri ilə xarakterizə olunur. Musiqi emosiyaları məzmununa görə insanın müxtəlif səviyyələrdə - ötəri əhval-ruhiyyədən, lokal affektdən tutmuş musiqi sənəti ilə yaranan dünyaya münasibət ifadə edən elementlərə qədər bədii reaksiyalarının hierarxiyasını təmsil edir. Musiqi birbaşa hisslərin hərəkətini ötürmək, yalnız xarici real aləmi isə dolayısı ilə əks etdirmək qabiliyyətinə malikdir və onun ifadəlilik imkanları söz sənəti ilə müqayisədə son dərəcə dardır.

Dil və musiqi arasında ümumi cəhət səslərin tələffüz üsullarında, həm də onların eşidilməsində, yəni akustik xüsusiyyətlərində özünü göstərir. Danışığı qəbul edən insan özündən asılı olmadan onu özünün tələffüz etalonları ilə müqayisə edir. Tələffüz ifaya məna və ifadəlilik verir və bu səbəbdən də qavrama zamanı mühüm rol oynayır. Musiqi tələffüzü danışıqda səslərin tələffüzü ilə oxşardır, bu zaman ən ümumi prinsip onun üzvlənə bilməsidir. Mahnının ifası zamanı nitqin tələffüzü musiqinin ifasının üzərinə "sərilir" ki, bunun da nəticəsində onların bir-birini qarşılıqlı zənginləşmə simbiozu baş verir. Musiqi və dil özünəməxsus ümumi obyektiv qanunların, üzvlənmənin, vurğuların paylanmasının xarakterik olduğu səsli prosesdir. Musiqinin məzmununu intonasiyadan ayrılmaz vəhdətdə götürən B.V.Asafiyev obrazlı dillə qeyd edirdi ki, "şərabın müxtəlif formalı qədəhlərə təsiq etmədiyi

kimi, məzmun musiqiyə təsir etmir, amma intonasiya ilə səsşəkilli anlam kimi birləşmişdir" [5, s. 275].

Əlavə etmək lazımdır ki, nitq və musiqi janrları bir sıra kommunikativ qanunlara əsaslanır. Canlı danışığın mühüm və spesifik cəhətlərindən biri onun dialoji mahiyyətli olmasıdır. Musiqi əsərlərinin təhlili də polofoniyada "replikaların" ötürülməsinin ümumi prinsipləri dialoji və monoloji planlı nitq formalarında daxil olur.

Danışığın intonasiyası özünün məntiqi-məna, emosional-ifadəli və xarakteristik funksiyalarında ünsiyyət prosesində tələffüz edilən sözlərin yalnız konkret mənalarına deyil, həm də ünsiyyətin baş tutduğu konkret situasiyaya əsaslanır. Analoji asılılıq musiqidə də müşahidə olunur. Həm danışıqda, həm də musiqidə janr bu və ya digər dərəcədə tipik, onun üçün ənənəvi ünsiyyət şərtləri ilə bağlıdır və kommunikativ situasiyanın əks olunmasının formalarından biri kimi baxıla bilər. İntonasiya musiqidə musiqi dilinin əsas ifadəli vasitəsidir. Adi danışıqda isə intonasiya emosional-modal səciyyə kimi ancaq həmsöhbətlər üçün vacibdir, halbuki insanların məntiqi təfəkkürü intonasiyaya əhəmiyyət vermir. Bu barədə N.İ.Jinkinin fikri də çox maraqlıdır: "Məntiqi terminləşmiş danışıq musiqiyə əksdir. İfadənin bu iki növü vahid zəncirin müxtəlif uclarında yer tutur. Terminləşmiş danışıq intonasiyadan çəkinir, ondan uzaqlaşır, onu ağır yük kimi, cəza kimi daşıyır. Musiqi yalnız intonasiyanı tanıyır..." [6, s.80].

Beləliklə, dil və musiqi ümumi intonasiya təbiətinə, fiziki səs qanunlarına və onun qavranılmasının psixofizioloji proseslərinə əsaslanan insan şüurunun sosial-şərtlənmiş formalarıdır. Dil və musiqinin oxşarlığının aşkar parametri onların kommunikativliyindən – səsli informasiyanın varlığı və saxlanılmasının ümumiliyindən meydana gəlir. Musiqi və danışığın intonasiyası subyekt (yaşı, cinsi, psixi durumu), fərdin əsrin mədəniyyət paradiqminə mənsub olduğu qrup haqqında informasiyanı özündə cəmləşdirir. Milli, gender, tarixi, fərdi-üslubi, obrazlı-tematik informasiya axınları musiqi və danışığın intonasiyasında cəmləşir. Danışığın intonasiyası situasiya və kontekstin xarakterini əks etdirir, fikrin planlarını aşkar edir və müvafiq şəkildə həmsöhbətin diqqətini kökləyir. Bütün bunlar musiqi intonasiyasının da spesifik sahəsində müəyyən inkişaf tapırlar.

***Ədəbiyyat***

1.Veysəlli, F.Y. Fonetika və fonologiya məsələləri. F.Y.Veysəlli. Bakı: Maarif, 1993. 192 s.
2.Veysəlli, F.Y. Musiqi və dil. Dərs vəsaiti / F.Y.Veysəlli. –Bakı: Mütərcim, - 2019, -128 с.
3.Арановский, М.Г. Синтаксическая структура мелодии/ М.Г.Арановский. -Москва: Музыка, -1991. -320 с.,
4.Асафьев, Б.В. Речевая интонация /Б.В.Асафьев. Москва: - Ленинград., 1965. – 136 с.
5.Асафьев, Б.В. Музыкальная форма как процесс / Б.В.Асафьев. - Ленинград: Музыка, -1971. - 376 с.
6.Жинкин, Н.И. Проблема художественного образа в искусствах (Тезисы к докладу) // Изв. АН СССР, СЛЯ. – 1985. - №1. с. 137-149
7.Зиндер, Л.Р. Общая фонетика / Л.Р. Зиндер. -Москва: Высшая школа, -1979. - 312 с.
8.Мазель, Л.А. О путях развития языка современной музыки // - Москва: Советская музыка. – 1965. № 8. с. 6-20.
9.Медушевский, В. В. Человек в зеркале интонационной формы // Советская музыка. - 1980. - № 9, - с. 38-49.
10.Назайкинский, Е.В. О психологии музыкального восприятия /Е.В. Назайкинский: - Москва : Музыка, -1972. – 383с.
11.Назайкинский, Е.В. Логика музыкальной композиции. /Е.В. Назайкинский: - Москва : Музыка, -1982. – 319 с.
12.Пешковский, А.М. Интонация и грамматика // Избранные труды/А.М. Пешковский. –Москва: Учпедгиз, - 1959. – с 177-191.

13.Фейнберг, С.Е. Пианизм как искусство С.Е.Фейнберг.Москва,Классика XXI, 2003. 608 с.
14.Черемисина, Н.В. Русская интонация: поэзия, проза, разговорная речь/ Н.В. Черемисина. – Москва: Русский язык. -1982. – 207 с.
15.Цеплитис, Л.К. Анализ речевой интонации/ Л.К.Цеплитис.Рига: Зинатне, 1974, 274 с.
16.Щерба, Л.В. Фонетика французского языка / Л.В. Щерба. -Москва: Высшая школа, -1963, -308 с.
17.Patel, A. Music, Language, and the Brain /A.Patel. N.Y.: Oxford University press, -2008. -528 p.

## ИНТОНАЦИЯ ЯЗЫКА И МУЗЫКИ: РАЗЛИЧИЯ И СХОДСТВА

***Алекберова Фидан Фаиг***

***Резюме***

В данной статье рассматриваются различные аспекты взаимоотношений словесного и музыкального языков. В статье дается обзор исследований, посвященных интонации, ее основным компонентом и функциям в речи и музыке, с целью обнаружения общности интонационных явлений. Автором прослеживается историческое развитие научного знания о данных культурных феноменах, а также анализируются основные источники, где рассматрены сходные и различительные черты языка и музыки. В статье отмечается, что речевая и музыкальная интонация является носительницей образно-смысловой информации, она участвует в формировании смысловой нагрузки и эмоционального состояния, а также создает эмоционально-тембровый образ. Автором отмечается связь между речевой и музыкальной интонации, другими словами, музыкальная интонация исходит из речевой интонации.

## THE INTONATION OF LANGUAGE AND MUSIC: DIFFERENCES AND SIMILARITIES

***Alakbarova Fidan Faiq***

***Summary***

The article investigates various aspects of the relationship between verbal and musical languages. The article provides an overview of the sources devoted to intonation, its main components and functions in music and language in order to reveal the general features of the intonation event. The author traces the historical development of knowledge about these cultural phenomena as well as analyzes the sources that explore the similarities and differences between language and music. The article notes that the intonation of music and speech is a carrier of image-meaning information, its participation in the formation of the burden of meaning and emotional state as well as the creation of the emotional quality of the image. The author emphasizes the connection between music and speech intonation, in other words, shows that musical intonation is derived from speech intonation.

***Rəyçi: f.e.d. F.Y.Veysəlli ADU-nun Ümumi dilçilik kafedrasının professoru***
***Daxil olma tarixi 16 noyabr 2021-ci il***